"Təsdiq edirəm"
Azərbaycan Dövlət
Pedaqoji Universitetinin rektoru
t.e.d., prof. C.M.Cəfərov
"04" Fevral 2025-ci il

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

## Sosial məsuliyyətlilik siyasəti

Azərbaycan Dövlət Pedaqoji Universiteti ömür boyu təhsil və inkişaf prosesinə töhfə verməyi, həmçinin milli və beynəlxalq səviyyədə nüfuzlu bir universitet olmağı öz missiyası və vizyonu olaraq qəbul etmişdir. Universitet həmçinin, əldə edilən biliklərin daxili və xarici maraqlı tərəflər vasitəsilə cəmiyyətə ötürülməsini əsas dəyər kimi qəbul edir . Bu perspektivə uyğun olaraq, yerli, milli və beynəlxalq inkişafı təmin etmək məqsədilə siyasi, iqtisadi, sosial, mədəni, təhsil və texnoloji sahələrdə aparılan elmi araşdırmalar əsasında cəmiyyətə xidmət göstərmək məqsədilə;

- Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, eyni zamanda, bu dəyərlərin ümumbəşəri dəyərlərlə sintezi və zənginləşməsi siyasəti ilə ölkəyə layiqli vətəndaş yetişdirilməsinə tövfə vermək,
- Keyfiyyətli təhsil verməklə cəmiyyətə səmərəli töhfə verə biləcək mütəxəssislərin hazırlanmasına və inkişafına diqqət yetirmək. Bura müəllimlərə müasir tədris üsullarını öyrənməyə təşviq etmək, texnologiyanın inteqrasiyasını və tələbələrin müxtəlif ehtiyaclarını dərk etmək bacarıqlarını aşılamaq daxildir,
- Təhsil müəssisələri ilə tez-tez təhsil problemlərinin həllinə istiqamətlənmiş işlər görmək və ömür boyu öyrənməni təşviq etmək üçün yerli icmalarla əlaqə qurmaq. Bu, valideynlərə,

Scanned with CamScanner

tələbələrə və müəllimlərə yönəlmiş seminarların və təbliğat proqramlarının təşkilini əhatə edə bilər,

- Təhsil təcrübələrinin, siyasətlərinin və sistemlərinin təkmilləşdirilməsinə regionun inkişafına töhvə verən iqtisadi, sosial, mədəni, təhsil və texnologiya sahələrində tədqiqatlar aparmaq,
- İnklüziv təhsili təşviq etmək, dəstək xidmətlərinin göstərilməsi, tolerantlıq və inklüzivlik mədəniyyətini inkişaf etdirmək,
- Universitetin sosial təsirini artırmaq üçün məktəblər, qeyri-hökumət təşkilatları, dövlət qurumları və özəl müəssisələrlə tərəfdaşlıq və əməkdaşlıq qurmaq. Bu cür tərəfdaşlıqlar birgə layihələrə, maliyyə imkanlarına və bilik mübadiləsi təşəbbüslərinə səbəb ola bilər,
- Təhsil mütəxəssisləri arasında bacarıqları təkmilləşdirmək, bilikləri yeniləmək üçün müəllimlər, idarəçilər və təhsil sektorunda digər maraqlı tərəflər üçün peşəkar inkişaf proqramları təklif etmək,
- Yerli, milli və beynəlxalq səviyyələrdə təhsil siyasətinə təsir göstərmək üçün təbliğat və siyasət dialoqu aparmaq, müzakirələrdə iştirak etmək, tədqiqata əsaslanan təbliğat kampaniyaları aparmaq və təhsillə bağlı məsələlər üzrə ekspert rəylərini verilmək,
- Tələbələri pedaqoji təcrübənin bir hissəsi kimi sosial layihələrdə və ictimai xidmətlərdə könüllülük, aztəminatlı şagird və tələbələrə dərs demə və ya təhsil proqramlarında iştirak etməyə təşviq etmək,
- Ekoloji təşəbbüslər, enerjiyə qənaət tədbirləri, tullantıların azaldılması proqramlarına qoşulmaq, təkrar emal prosesinə dəstək və ətraf mühitin mühafizəsinə yönələn işlər görmək,
- İctimai təşkilatlarla əlaqələr qurmaqla, könüllülük imkanları, istehsalat və pedaqoji təcrübə ilə tələbələrə və məzunlara sosial təsir göstərmək,
- Səhiyyə xidmətləri çərçivəsində sağlamlığın qorunması haqqında məlumat vermək və sağlamlıq problemlərinin bütün mərhələlərində xidməti dəstəkləmək,
- Sağlam həyat üçün idman fəaliyyətini təşviq etmək və idmanın cəmiyyətin hər bir təbəqəsini əhatə etməsinə imkan yaratmaq,
- Cəmiyyətin rifahına müsbət töhfə verən və aktual sosial problemləri həll edən məsuliyyətli və cəlbedici bir təhsil müəssisəsi olmaq.

prinsipini qəbul etmişdir.

Scanned with CamScanner